# Növbəti əmək yarmarkası

Qəbələ Rayon Məşğulluq Mərkəzi növbəti əmək yarmarkası keçirmişdir. Rayon mədəniyyət mərkəzində təşkil olunmuş əmək yarmarkasını giriş sözü ilə məşğulluq mərkəzinin direktoru Elxan Səlimov açmışdır. Direktor bildirmişdir ki, aktiv məşğulluq tədbiri olan əmək yarmarkalarının keçirilməsi artıq ənənə halını almışdır.





Elxan Səlimov qeyd edib ki, bu günkü yarmarkaya 31 dövlət, 8 qeyri-dövlət müəssisə və təşkilatından 280 boş iş yeri barədə tələbat təqdim olunmuşdur.

Təqdim olunmuş iş yerlərinin 104-ü dövlət, 176-sı qeyri-dövlət müəssisə və təşkilatlarındandır.

Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Arif Allahverdiyev çıxışında bildirmişdir ki, Prezident cənab İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin nəticəsində respublikamızın digər bölgələri kimi Qəbələdə də çoxsaylı sənaye və tikinti obyektləri, sosial xarakterli müəssisələr, turizm mərkəzləri açılmışdır və nəticədə çoxsaylı iş yerləri yaranmışdır.

Rayonda ixrac və istehlak yönümlü kənd təsərrüfatı məhsullarının istehsalının canlandırılması da çoxsaylı iş yerlərinin açılmasına səbəb olmuşdur.

Qəbələ Regional «ASAN xidmət» mərkəzinin əməkdaşı Nuranə Ağabəyli «ASAN xidmət» mərkəzlərində işə qəbul qaydaları və «ASAN xidmət» də könüllülük barədə tədbir iştirakçılarına ətraflı məlumat verib. Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin direktoru Eyvaz Kazımov rəhbərlik etdiyi təşkilatda kadrların hazırlanması və işlə təmin olunması məsələlərindən danışıb. Sonra işaxtaran tədbir iştirakçıları yarmarkada iştirak edən müəssisə və təşkilatların nümayəndələrinə yaxınlaşaraq ixtisas və peşələrinə uyğun iş seçdilər. Yarmarkada 70 nəfərdən artıq işaxtaran münasib işlə təmin olunmuşdur.

**«Qəbələ»**

# 5 İyun Ümumdünya Ətraf Mühit Günüdür



BMT Baş Assambleyasının 1972-ci ilin 15 dekabrında Stokholmda keçirilən konfransında 5 iyun Ümumdünya Ətraf Mühit Günü elan edilib.

Ətraf mühitin mühafizəsi və ekoloji problemlər Azərbaycanda da diqqət mərkəzindədir. Ulu öndər Heydər Əliyev ana təbiətə hər zaman böyük qayğı ilə yanaşırdı. Hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə olduğu kimi, ekoloji problemlərin həlli, ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın bərpa edilməsi istiqamətində də mühüm işlər görülür. Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa, meşələrin bərpa edilməsi və artırılmasına dair milli proqramlar, həmçinin beynəlxalq ekoloji proqramların həyata keçirilməsi, təbii sərvətlərin bərpasının təmin edilməsi və mühafizəsi, milli parkların təşkili və ekoloji şəbəkənin yaradılması istiqamətində görülən işlər də bu qəbildəndir.

Heydər Əliyev Fondunun ekologiyanın, ətraf mühitin qorunmasına xidmət edən bir neçə il öncə başlamış "Hərəmiz bir ağac əkək" layihəsi də bu sahəyə böyük töhfələr verib. Fondun Prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən bu layihə çərçivəsində hektarlarla yeni meşə və yaşıllıq sahələri salınmışdır. Azərbaycanın birinci xanımı özü bu kampaniyada iştirak etməklə cəmiyyətə daha bir xoş məram mesajı göndərib. Nəticədə bu devizə bütün ölkə vətəndaşları qoşulmuşdur.

Heydər Əliyev Fondunun vitse-prezidenti, Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq Təşəbbüsü - İDEA-nın təsisçisi Leyla Əliyevanın təklifi ilə 2011-ci il iyulun 12-dən fəaliyyətə başlayan İDEA - Ətraf Mühit Kampaniyası ölkəmizdə bu sahədə görülən işlərin məntiqi davamı kimi qiymətləndirilə bilər. Kampaniya çərçivəsində ilk dəfə Qəbələdə İDEA-nın təşkilatçılığı ilə "Ekoloji idarəçilikdə gənclərin rolu: bu gün və sabah" devizi ilə gənc ekoloqların beynəlxalq düşərgəsi təşkil olunmuşdur. Bu tədbir dünyanın müxtəlif ölkələrinin gənc ekoloqlarını bir araya gətirmişdir. Burada ətraf mühitlə bağlı məsələlər müzakirə edilmiş, Azərbaycanda ekoloji problemlərə verilən önəm bir daha ortaya qoyulmuşdur. Tədbirdə 35 ölkədən 100-ə yaxın nümayəndə iştirak etmişdir.

Bu gün ölkəmizdə ekoloji problemlər, ətraf mühitin mühafizəsi daha çox diqqət mərkəzində saxlanılır, yeni milli parkların yaradılması işi uğurla davam etdirilir, təbii ehtiyatların qorunması üçün uzunmüddətli dövlət proqramları həyata keçirilir.

**"Qəbələ"**

# Sağlam həyat tərzi ailənin təməlidir

***Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzi Nic qəsəbəsində "Sağlam həyat tərzi və sağlam ətraf mühit" mövzusunda tədbir keçirmişdir. Tədbirə müəllimlər, valideynlər,ictimaiyyət nümayəndələri dəvət olunmuşdu.***

Tədbiri giriş sözü ilə Nic qəsəbəsi üzrə inzibati ərazi nümayəndəsi İbrahim Məmmədov açmışdır.

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin direktoru əvəzi Günel Ağayeva tədbir iştirakçılarına mərkəzin fəaliyyəti haqqında geniş məlumat vermiş, bu günkü tədbirin mahiyyətini açıqlamışdır. Daha sonra söz rayon mərkəzi xəstəxanasının həkimi Dilarə Osmanovaya verilmişdir. O, çıxışında reproduktiv sistem, onun funksiyası və problemləri, reproduktiv sağlamlıq, ana və uşaq ölümləri, erkən nikahlar və onlara qarşı mübarizə haqqında məlumat vermişdir. Rayon polis idarəsinin yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili qrupunun baş inspektoru Azər Hüseynov öz çıxışında narkotiklərdən, alkoqollu içkilərdən, tütün məmulatlarından istifadə və s. bu kimi zərərli vərdişlərin insan orqanizminə göstərdiyi zərər və bu hallara qarşı mübarizə sahəsində qanunvericiliyin tələbləri haqqında tədbir iştirakçılarını ətraflı məlumatlandırmışdır. Mərkəzin psixoloqu Rüfət Əhmədov tədbir iştirakçılarını maraqlandıran sualları cavablandırmış, həmçinin, sağlam həyat tərzinin əsas prinsipləri barədə danışmışdır.

**✍ Sarışın YAŞARQIZI, uşaq və ailələrə dəstək mərkəzinin sosial iş üzrə mütəxəssisi.**

# Milli qurtuluşumuzun zəfər yürüşü

**(Əvvəli 3-cü səhifədə).**

15 iyun müasir Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş günü kimi daxil olmuşdur. 1993-cü ilin həmin günü Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilmişdir. Sonralar ölkənin ali qanunvericilik orqanı xalqın ən müxtəlif təbəqələrinin arzu və istəklərini nəzərə alaraq Heydər Əliyevin hakimiyyətə qayıtdığı 15 iyun gününü əbədiləşdirmişdir. 15 iyun - Qurtuluş günü Azərbaycan Milli Məclisinin qərarı ilə 1997-ci ilin 27 iyununda rəsmiləşdirildi. Milli Məclisin həmin tarixi qərarında deyilir: "Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ən ağır günlərdə Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıtması, əslində, onun müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi. Bu, sözün əsl mənasında, "ömrümün qalan hissəsini də xalqıma həsr edəcəyəm" deyib meydana atılan böyük ürəkli Vətən oğlunun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi.

Həmin vaxtdan bu günə qədər Azərbaycan xalqı 15 iyun gününü əziz bayram kimi qeyd edir və Azərbaycan dövlətinin qurtuluşunun başlanğıcı kimi dəyərləndirir. Ötən illərdə ümummilli liderimizin həyata keçirdiyi şərəfli xilaskarlıq missiyası xalqımızın və bütün dünyanın gözü qarşısında cərəyan etmiş, Azərbaycan məhv olmaq təhlükəsindən qurtularaq gələcəyə inamla baxan güclü bir dövlətə çevrilmişdir. Bu illərdə Heydər Əliyevin gərgin zəhmət, əzm və siyasi iradə sayəsində reallaşdırdığı nəhəng işlər öz miqyasına görə insanı heyrətə gətirir.

Hazırda Azərbaycanda müstəqil dövlətçilik ənənələri formalaşdırılmışdır və şübhəsiz ki, bu mühüm nailiyyətin əldə edilməsində ümummilli lider Heydər Əliyevin fədakar xidmətlərinin müstəsna əhəmiyyəti vardır. Onun siyasi xadim kimi yürütdüyü siyasətin başlıca qayəsi Azərbaycanı hər bir vətəndaşının təhlükəsizliyini qoruya biləcək qədər qüdrətli dövlətə çevirmək olmuşdur. Bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev ümummilli liderimizin siyasi xəttinə sadiq qalaraq müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır. Artıq neçə ildir ki, Azərbaycan Respublikasının milli qurtuluş yolu davam edir. Bu yol Heydər Əliyevin müəyyənləşdirdiyi yoldur. Bu yolla gedən Azərbaycan durmadan yüksəlir, inkişaf edir, uğurlar qazanır. Heydər Əliyevin özü vaxtilə müdrikcəsinə demişdir: "Heç bir qüvvə Azərbaycanın müstəqilliyini əlindən ala bilməz. Bundan sonra heç bir qüvvə Azərbaycan dövlətçiliyini məhv edə bilməz". Bu inam, bu qətiyyət Milli Qurtuluş gününün mənası və verdiyi ibrət dərsləridir. Bu onu göstərir ki, nə qədər Azərbaycan var, Heydər Əliyev də olacaq, onun ideya və əməlləri yaşayacaq, bizi daim doğru yolla, irəliyə aparacaqdır.

"Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq o, ürəyimizdə yaşayır, qəlbimizdə yaşayır, onun əməlləri, ideyaları yaşayır, onun siyasəti yaşayır və əbədi yaşayacaqdır"! Azərbaycan Prezidenti cənab İlham Əliyevin söylədiyi bu fikirlər zaman keçdikcə öz əhəmiyyətini saxlayacaqdır...

Heydər Əliyevin yenilməz iradəsi, uzaqgörənliyi, fədakarlığı onu bütün dünya azərbaycanlılarının lideri etmiş, ömür yolu doğma vətənə xidmət nümunəsinə çevrilmişdir. Bütün şüurlu həyatını canından artıq sevdiyi xalqına, ölkəsinə həsr etmiş bu müdrik siyasi və dövlət xadimi tariximizdə müstəqilliyimizin memarı və qurucusu kimi yer tutmuşdur. Heydər Əliyev fenomeninə məxsus iti zəka, müdriklik, uzaqgörənlik və əzmkarlıq ona əvəzsiz ümummilli lider mövqeyi qazandırmışdır. Çoxşaxəli və zəngin fəaliyyəti, misilsiz insani keyfiyyətləri sayəsində o, zəmanəmizin əbədiyaşar dahisinə çevrilmişdir. Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyev irsini müstəqilliyinin təminatçısı kimi qəbul edir.

**"Qəbələ"**